# ŞAİR AVDI QOŞQAR "RUHUN DAŞQINI"NDA



Şəddat CƏFƏROV

*"Bakı mətbəəsi"nin direktoru, Respublikanın ilk poliqrafçı alimi, iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü*

***(Əvvəli ötən sayımızda)***

Avdı Qoşqar ədəbiyyata 80-ci illərin boğanaq zamanında gəlib. Bu o dövr idi ki, cəmiyyət yeni bir zamana möhtac olmuşdu. İnsanlar artıq klassik təbircə desək, köhnə qaydalara sığmırdı. İnsanlar yeni hava, yeni nəfəs, yeni mühit arzulayırdı. Şübhəsiz, bu cür mənəvi gərginlik mühiti şairləri də xüsusi missiya ilə sözünü deməyə səsləyirdi.

Əlbəttə, meydanda Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Araz vardı, Zəlimxan Yaqub vardı, Şahmar Əkbərzadə, İsa İsmayılzadə... kimi şairlər insanların istək və arzularını şeirlərinə gətirir, insanların diləklərini poetik biçimdə, özü də, üsyankarlıqla ifadə edirdilər. Əlbəttə, 80-ci illərin bu ab-havası gənc şairlərə də təsirsiz ötüşə bilməzdi.

İndi Əli Rza Xələflinin *"Ruhun daşqını"* kitabını təzədən vərəqləyirəm. Ayrı-ayrı hissələri oxuduqca həmin dövr gözlərimin önündə canlanır. Mənə aydın olur ki, Avdı Qoşqar kimi ruhu alovlu bir şair poeziyada oyanışın ahəngini nə üçün öz yaradıcılığına gətirib.

Artıq tərənnüm dövrü ötüb-keçmişdi. İndi vətəni yuxudan oyatmaq zamanı gəlmişdi. Onsuz da siyasi arenada nəhəng Sovet dövlətinin çöküşü də hiss olunmaqda idi. Onsuz da az keçmədi ki, 80-ci illərin sonunda mitinq dalğaları nəhəng Sovet ərazisinin müxtəlif tərəflərində üzə çıxdı.

Azərbaycan da belə bir kəskin dalğa ilə üzləşməli olmuşdu. Xüsusilə erməni seperatçılarının Dağlıq Qarabağda baş qaldırması, Ermənistanda Azərbaycana ərazi iddiaları açıq-aşkar dilə gətirilirdi. Belə bir dövrdə artıq tərəddüdlə yaşamaq, sözünü gizləmək mümkün deyildi. Xüsusilə Avdı Qoşqar kimi üsyankar şairlər üçün küncdə-bucaqda daldalanmaq zamanı ötüb-keçmişdi.

Şairlər həmişə vətənin mənəvi keşiyinin əsgəri missiyasını daşıyıb. Əgər hardasa vətən sarsılırsa, bu sarsıntı şairin də qəlbini titrədir. Ermənilər Topxana meşəsini qırıb-dağıdır, Qarabağın müxtəlif yerlərində terror aktları törədir, ən başlıcası, indiki Ermənistan ərazisindəki tarixi aborigen azərbaycanlılar qətliyamlarla müşayiət olunan deportasiyaya məruz qalırdı. Belə bir zamanda vətəni səfərbər etmək, xalqı özünü xilas üçün birliyə çağırmaq vəzifəsi birinci növbədə şairlərin haqqı oldu. Avdı Qoşqar da məhz həmin zamanda özünün *"Proqram"* şeirini yazdı. Əslində həmin dövrdə Avdı Qoşqarın poetik yaradıcılığı bir-birini tamamlayan düşüncələrinin məhsulu idi. Onun şeirləri ona görə odlu-alovlu misralarla duyğularını dilə gətirirdi ki, onun varlığında ocaq qalanmışdı.

Avdı Qoşqar haqqında çoxlu müəlliflər yazıb. Vaqif Yusifli, Nizami Cəfərov, Rüstəm Kamal, Əli Rza Xələfli və onlarca müəllifin adını çəkmək olar ki, onların hər biri Avdı Qoşqarın poeziyasını xalqın səsi kimi xarakterizə edib. Bu müəlliflər sırasında Avdı Qoşqar poeziyasına münasibət baxımından Şəfəq Nasirin qeydləri, zənnimcə, daha əhatəli və genişdir. Şəfəq Nasir ədəbi düşüncə mühitində həm Avdı Qoşqarın yaradıcılığını, həm də Əli Rza Xələflinin *"Ruhun daşqını"* kitabı ilə şairin poeziyasına münasibətini bir müstəviyə gətirə bilir. Həmin müstəvidə biz həm Avdı Qoşqarın üsyankar ruhunu, həm də onun daşqınlarla müşayiət olunan poeziyasına Xələflinin qanadlı publisistikası ilə münasibətini görürük: *"Çıx çəpər dibindən, qaya çatından... Sürünən ruhları silkələ qaldır. Adamın ruhu alışır, odunu söndürmək üçün göyün üzünə çəkilməyi gəlir... Əli Rza şeirin hər sətrini, ifadəsini elə bir təhlil süzgəcindən keçirir ki, onun məna çalarları, ideyası... çılın-çılpaq həqiqətlər səsin və rəngin ecazı ilə göz önündə canlanır. Mənə görə Avdı Qoşqarın yaradıcılığında zirvə olan bu şeirin təhlili tədqiqatlarda, elmi-nəzəri təhlillərdə gedilmiş yolların, ifadə üslubunun tam əksinədir - yenidir, orijinaldır. Bunu quru söz xatirinə qəbul etməyin, rica edirəm..."*. Zənnimcə, Şəfəq Nasir düz deyir. Hər bir şairin yaradıcılığında onun həyata hansı kriteriyalarla, hansı ölçülərlə yanaşması dəqiqliklə öz əksini tapır. Demək, Şəfəq Nasir *"Çıx çəpər dibindən"* şeirini Avdı Qoşqarın poetik ünvanı kimi qəbul edir. Onun elə Avdı Qoşqar poeziyasının yanğısını özünə çəkən qeydləri hər bir oxucunu nəinki düşündürür, həm də onun ruhunu səfərbər edir.

Şəfəq Nasir xüsusi bir həvəslə,daxili-mənəvi məmnunluqla qələmə aldığı yazısı *"Ruhun daşqını"* əsərinin fonunda Avdı Qoşqarın öz yanğılarını da ehtiva edir.

Şəfəq Nasir yazır: *"Siz Əli Rza müəllimin səsinə də qulaq verin"*. Və bundan sonra *"Ruhun daşqını"* kitabının mahiyyətini ehtiva edən Xələfli düşüncələrini sözünə dayaq kimi görür. Bu da təsadüfi deyil. Çünki Avdı Qoşqar yaradıcılığı ayrıca bir adada yaşayan Robinzon düşüncələri deyil. Azərbaycan mənəvi mühitinin içindən boy atıb qalxmış sənətkarların ümumi ansamblında öz yeri olan sənətkarın səsidir. İndi Şəfəq Nasirin istinad etdiyi Xələfli düşüncələrinə biz də diqqət edək: *"... Avdı Qoşqar mənəviyyatın parçalanması ilə bağlı mübarizəyə çağırış edir, yoxsa, "Çıx çəpər dibindən..." şeiri necə yarana bilərdi? Yoxsa biz bir çox motivlərinə görə Məmməd Araz şeirinin sonsuz həyəcanla müşayiət olunan emosiyasının davamını bu şeirdə görə bilərdikmi? (Ə.Xələfli öz təhlilində Avdının bu şeirində onun üsyankar səsini 90-cı illərin əvvəllərindəki Məmməd Araz səsini xatırlatdığını ("Yatmış vulkan") diqqətə çəkir). Poetik nəfəsin sahibi M.Araz poeziyasına müqəddəs kitab kimi and içir, onun ruhunu başının üstündə hiss edir: Səninləyəm, qoca vulkan. M.Arazın bu sözləri şairə imkan verib ki, bütövlükdə milləti vətən, vətəni millət kimi görsün və bu diri cana, oyaq ruha müraciət edərək ona kimliyini anlatsın:*

*Qaldır, son gücünü - topla bir təhər,*
*Qaldır itaəti çeynəsin qəhər.*
*Qara kəhər üstə göynəyir yəhər -*
*O yəhər üstündə sən olmalısan,*
*Hay elə yedəkdən quzunu saldır,*
*Millətin sürünən ruhunu qaldır...*
*Qaldır, böylə millət, böylə ad olmaz,*
*Millət bir-birinə böylə yad olmaz,*
*Olmaz, gözlərinin qurbanı, olmaz.*

*Bəli, Avdı Qoşqarın belə şeirləri də var; o şeirləri ki, yatmış ruhun qulağına elə bağırır ki, onun beyni-başı çatlasın, itaət öz qılafından çıxa bilsin, anlasın ki, o yalnız qəhər içində ömrünü başa vura bilməz. 80-ci illərin, 90-cı illərin havası üçün bu şeirin gücü, mahiyyəti hər kəsə aydındır"*. Elə düşüncələr var ki, zamanında kifayət qədər təsiredici olur. Amma müəyyən müddət keçəndən sonra sanki o düşüncələrin odu-ocağı sönür, alovu sönür. Amma Avdı Qoşqarın yaradıcılığı Əli Rza Xələfliyə elə bir od qoyur ki, sanki yazını Qarabağ uğrunda savaşın başladığı zaman üçün yazır. Əlbəttə, bütün bunlar Avdı Qoşar poeziyasının yaşarı gücündən xəbər verir. Şəfəq

Əli Rza Xələfli




Nasir təsadüfi olaraq həmin düşüncələrə istinad etmir, çünki bu düşüncələrdə öz səsini də duyur, eşidir: *"Axı, onu atababalarının suvar olduğu kəhər gözləyir. O kəhərin bu gün adı qəzəbdir; qərəzdən xali, haqqını qaytarmaq uğrunda doldu-ğu qəzəb... bu qəzəbin köhləninə vara bilməyən yaqin ki, öz taleyini yaza bilməyəcək. Əgər şair üçün həqiqəti deməyin son ucu varsa, Avdı Qoşqar üçün həqiqəti deməyin son ucu elə bu yerdir. Axı, insan nə qədər çəpər dibində baş girləyə bilər. Müəllifin bu şeirə təkrarən qayıtması, onun ümumi ideyasından başqa hər sözünə, ifadəsinə fikir bildirməsi "Çıx çəpər dibindən..." şeirinə açıqdan vurulduğunu göstərir. Əli Rza Xələfli də kiməsə, nəyəsə vuruldumu damarından şoruldayan qanını kəsmək olmur..."*. Doğru deyir, çünki şairlər sevgi baxımından da çox həssasdırlar. *"Ruhun daşqını"* kitabının ayrı-ayrı səhifələrini, bu kitabda verilmiş ayrı-ayrı yazıları çevirdikcə, onun Avdı Qoşqar yaradıcılığına necə qaynar bir sevgi bəslədiyini görməmək mümkün deyil.

Şairlik sənətkarın taleyində bəxt payıdır. Şairin yaradıcılığına oxucu sevgisi də bəxt payıdır. Amma o şairlərin bəxti gətirir ki, onların yaradıcılığını bilən, duyan insanların sevgilərinə qaynaq olur. Zənnimcə, Əli Rza Xələflinin Avdı Qoşqar yaradıcılığını özünəxas bir odla, alovla təhlil etməsi, hətta bir çox hallarda tərənnüm etməsi onun yüksək əyarlı sözü dəyərləndirmək gücündən xəbər verir. Bu, mən deyərdim ki, sərraflıqdır.

Şəfəq Nasir də tənqidçi ilə şairi, sənətkarla sənətkarı bir-birinə bağlayan duyğuları uca tutmaqda israrlıdır və həm də düşünürəm ki, haqlıdır: *"Bir daha təkrar etməkdən çəkinmirəm ki, bu şeirin təhlili bu vaxtacan gördüyüm, oxuduğum tədqiqatlarda, elmi təhlillərdə gedilmiş yolların, bədii-nəzəri tədqiqinin tam əksinədir, yeni və orijinaldır. Klassik şeirimizin nəhənglərindən (Nizami, Nəsimi, Vidadi, Vaqif, Səməd Vurğun...) məzmun, ideya və mahiyyətcə öyrənmək, o xətti yeni formada davam etdirmək, müqayisələr aparmaq nə qədər məqsədyönlü və ibrətlidir"*. Avdı Qoşqar, bu qeydlərdən də göründüyü kimi, ənənəvi poeziyamızın ən yaxşı keyfiyyətlərini özünə əxz edib. Yazı yolunda ənənəni qorumaq, ənənəni inkar etmədən ona yenilik forması gətirmək, yeni məzmun vermək əslində sənətkarın istedadı ilə şərtlənən keyfiyyətdir.

Əli Rza Xələfli Avdı Qoşqarın portret şeirlərini də yüksək səviyyədə dəyərləndirir. Xüsusilə onun dostu şair Sabir Adilə həsr etdiyi *"5 şeir"*in hər birini ayrıca təhlilə çəkir və belə bir qənaətə gəlir ki, Avdı Qoşqar bu *"5 şeir"*lə Sabir Adilin mükəmməl portretini yaradır. Sözün əlvan çalarlarını rəngə çevirmək və portret çəkmək şairdən rəssam gücü tələb edir. Avdı Qoşqar buna nail olur, amma mənim diqqətimi başqa bir məqam da cəlb edir.

Əli Rza Xələfli *"Ruhun daşqını"* kitabında Avdı Qoşqarın portretini öz şeirləri ilə də yaradıb. Bunu da qanunauyğun hesab etməliyik, axı Əli Rza Xələfli özü də şairdir. Yeri gələndə ədəbi-tənqidi düşüncələrini poetik duyğulanmalarla əvəz edə bilir. Beləliklə *"Ruhun daşqını"* kitabından Xələflinin dostu Avdı Qoşqarın portretini yaradan bir parçaya da nəzər yetirmək yerinə düşərdi:

*"Allahın göndərdiyi*
*bir əkinçi*
*Misra-misra şum eləyib,*
*söz-söz toxum əkib.*
*"Sabir Adilə beş şeir..."dən*
*Süzülüb gələn duyğular*
*bir adam şəklini çəkib.*

*Bu adam hər kəsə*
*bənzəmir deyəsən*
*Nə gözə görünür,*
*nə sözə gəlir öyəsən.*

*Nə öldüyü bilinir, nə qaldığı*
*Nə verdiyi bilinir, nə aldığı.*
*Ancaq işıq kimi, nur kimi,*
*varlığımıza axır.*
*Bircə onu bilirsən ki,*
*yalanla yox kimidi.*
*Döyünən ürəklərdə tar simidi*
*bu şəkil adam.*
*Var olanla varda var,*
*Dilindən dara çəkilənlə*
*darda var.*
*Bir xeyirxah adama salamda,*
*doğru sözdə, kəlamda,*
*daha nə bilim...*
*Harda desən orda var.*
*Bəlkə, Allahın şəklidi...*
*Ulu Yaradanın -*
*Göy Tarnının*
*üzünü görənmi var?...*
*Bəlkə Allahın şəkli də*
*Sabir Adilə yazılan*
*beş şeirdə olduğu kimidi?!"*.

Şübhəsiz, klassiklərimizin portretini rəssamlar onların yaradıcılıqlarından aldıqları ilhamla, sözlərində gördüyü portret cizgilərinə əsaslanaraq yaradırlar. İnanıram ki, bir vaxt günümüzün şairlərinin portretlərini onların gələcək nəsillərə qalan fotoları əsasında deyil, poeziyalarına istinadla yaradacaqlar. Elə Avdı Qoşqarın da, Əli Rza Xələflinin də poetik sözlərinin rəngləri ilə belə portretlər yaradılacaq.

**28.01.2022**